**Kazus**

Ana, Maya və Branka, ana və iki qızı, Zöhrə Ulduzunun vətəndaşlarıdırlar və müvafiq olaraq 1973, 2000 və 2002-ci ildə anadan olmuşlar. Ana ixtisasca xadiməçidir, az təhsil almışdır, 1972-ci təvəllüdlü İonla evlidir. İon polis işçisidir.

İkinci qızlarından sonra, İon evə sərxoş gəlməyə və Ananı iki qızının gözü qabağında döyməyə başlamışdı. Bu, bir neçə il davam etdikdən sonra, ana anladı ki, bu vəziyyət iki qızının psixoloji rifahına mənfi təsir göstərir. O, bu hadisə haqqında orqanlara məlumat vermək qərarına gəldi. Zöhrə Ulduzu orqanları tərəfindən cərimə edilib və rəsmi xəbərdarlıq aldıqdan sonra, İon daha da qəzəblənmiş və 2013-cü ilin noyabr ayında həyat yoldaşını demək olar ki boğmuşdur.

Ana əbəs yerə tezliklə boşanma xahişinə baxılmasını rica etmişdir. Eyni zamanda, o, müdafiə haqqında əmr üçün milli məkəmələrə müraciət etmişdir və onun həyat yoldaşının ona və qizları üçün böyük təhlükə yaratdığı səbəbindən 2013-cü ilin 9 dekabrında müdafiə haqqında əmr verilmişdir. Kargüzarlıq səhvinə görə, əmr Ananın həyat yoldaşına ancaq 2014-cü ilin martın 15-də çatdırılmışdır. Əmrə əsasən, İon ərizəçi ilə əlaqə saxlamadan və onlara qarşı zorakılıq göstərmədən 90 gün ərzində evə 500 metrdən yaxın yaxınlaşmamalı idi. Polis müdafiə əmrinin yerinə yetirilməsinə nəzarət etmək üçün iş açmasına baxmayaraq, İon bir daha həyat yoldaşına hücum etmiş və evinə girmişdir. 2014-cü ilin martında Zöhrə Ulduzu məhkəməsi İonun müraciətini təmin etmiş və müdafiə əmrini qismən ləğv etmişdir. Bütün proseslər boyu İon polis işçisi olaraq işini davam etdirirmişdir.

2013-cü ilin dekabrında, Ana İonun zorakılığı haqqında polis işçilərinə şikayət edərək bildirmişdir ki, İon onun məhkumluğu oldub işini itirdiyi halda, bunun qızlarının təhsilinə və peşəkar perspektivlərinə təsir edəcəyini iddia edərəkAnaya cinayət şikayətini geri götürməsi üçün təzyiq göstərmişdir. Buna baxmayaraq, 2014-cü ilin yanvarında cinayət işinin istintaqı başlanmışdır. 2014-cü ilin fevralın 3-də, İonun Ana və qızları üçün böyük təhlükə yaratdığını nəzərə alaraq, Məhkəmə müdafiə əmrini onların xeyrinə olaraq uzatmışdır. Fevralın 7-də Prokuror İonun günahkar olmasına dair əsasən tibbi hesabatlar formasındaəsaslı sübutlar tapmasına (həmçinin, gələcək hücumların qorxusunun cox ciddi olması ilə bağlı Ananı ağır əzab və narahatlıq hissi keçirməsi), şahidlərin ifadələrinə və İonun zorakılıq göstərdiyini boynuna almasına baxmayaraq, İonun cəmiyyət üçün təhlükə olmadığını hesab edərək istintaqı bir il müddətinə təxirə salmaq qərarına gəlmişdi; bir şərtlə ki, İon bu müddət ərzində yenə zorakılıq edərsə, istintaq yenidən davam etdiriləcək. Bu müddət ərzində, işə cavabdeh olan social xidmətlər barışmanı təklif edərək Anaya onun döyülən birinci və axırıncı qadın olmadığını və zorakılığa baxmayaraq İonun onu sevdiyini və Ananın da onunla evlənib iki uşaq dünyaya gətirdiyini nəzərə alaraq onu sevdiyini söyləmişlər. Bundan başqa, o, qızların qayğısına qalmalıdır və onlar üçün ailə vacibdir.

*Hazırladı: İvana Roagna*